صفة الوضوء

# Dəstəmaz almağın qaydası

Azərbaycan dili

اللغة الأذرية




**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu



ALSARHAAN.COM

MAHADSUNNAH.COM

## Bu gün birlikdə dəstəmaz almağı öyrənək.

Dəstəmaz almazdan əvvəl Uca Allahı zikr edib "Bismilləh" deməliyik.

- Sonra ovuclarımızı üç dəfə yaxşıca yuyub barmaqlarımızın arasına suyu çatdırmalıyıq.

- Sonra ağzımıza suyu daxil edirik ki, yaxşıca yuyaq. Bunu üç dəfə edirik. Bu hərəkətə (Məzməzə) ağız yaxalamaq deyilir.

- Sonra burnumuza bir az su daxil edirik və yenidən çıxarırıq. Bunu da üç dəfə edirik. Bu hərəkət istinşaq (suyu buruna çəkmək) və İstinsar (Suyu ixrac etmək) adlanır.

- Sonra bütün üzümüzü üç dəfə yuyuruq. Su, sağ qulaqdan sol qulağa və alnın yuxarı hissəsindən çənənin altına qədər bütün üzü əhatə etməlidir.

- Sonra barmaqlarımızın ucundan dirsəklərə qədər əllərimizi üç dəfə yuyuruq.Əvvəlcə sağ əllə başlayırıq, sonra sol əli yuyuruq.

- Sonra bütün başımızı bir dəfə məsh edirik. Öndən arxaya məsh etməyə başlayırıq, sonra arxadan qabağa məsh edirik. Saçlar sıx olduqda yalnız qabaqdan arxaya məsh edə bilərik.

- Sonra bir az əvvəl başımıza məsh çəkdiyimiz su ilə qulağımızı içəridən və çöldən birlikdə məsh edirik.

- Sonra ayaqlara gəlirik. Onları topuqlara qədər üç dəfə yaxşı yuyuruq. Əvvəlcə sağ ayaqdan başlayırıq, sonra sol ayağı yuyuruq.